SEVİL BEYNƏLXALQ
QADIN SƏNƏDLİ
FİLM FESTİVALI

VII Sevil Beynəlxalq Qadın
Sənədli Film Festivalı

## 3-11 iyul, Bakı

# PROQRAM

# Kateqoriyalar

Festivallardan seçmələr

Retrospektiv: Heddi Honiqman

Beynəlxalq qısametrajlı sənədli animasiya

Beynəlxalq qısametrajlı sənədli film

Yerli qısametrajlı sənədli film

Dra(q)matik

Maskulinliklər

Master-klas

Sizin üçün

## 3 iyul

# Açılış Mərasimi

“INHERROOM”un musiqi performansı ilə

Qapalı tədbir.

## 4 iyul

Master-klas

# **PosterLAB:** Mövqeni vizual ifadəyə çevir

4 iyul | 12:00 | Landmark (Gaia zalı)

Yerli qısametrajlı sənədli film

# İki od arasında

***Atanur Nəbiyeva*** | 12 dəq. | Azərbaycan

II Qarabağ müharibəsindən sonra evə qayıdan bəzi veteranlar görünməyən yaralarla yaşamağa davam edirlər. “İki od arasında” cəbhədən dönüb başqa bir döyüşün içinə düşən üç veteranın hekayəsini izləyir.

Nümayişdən sonra rejissor ilə müzakirə var.

4 iyul | 16:00 | Landmark (Cine-Club)

Yerli qısametrajlı sənədli film

# nənə son versiya

***Məhəmməd Əliyev*** | 13 dəq. | Azərbaycan

Gənc rejissor nənəsinin ölümündən sonra arxiv videolarından istifadə edərək nənəsini yad edir, onunla vidalaşmağa çalışır.

Nümayişdən sonra rejissor ilə müzakirə var.

4 iyul | 16:45 | Landmark (Cine-Club)

Master-klas

## **Montaj-Demontaj:** Katya Drinqenberq ilə ustad dərsi

4 iyul 17:30 Landmark (Cine-Club)

Retrospektiv: Heddi Honiqman

## **Metal və melanxoliya (1994)**

***Heddi Honiqman*** | 80 dəq. | Niderland

Bir şəhəri tanımağın ən yaxşı yolu nədir? Təxminən iyirmi ildən sonra doğma ölkəsinə qayıdan Heddi Honiqman Perunun yeddi milyonluq paytaxtı Limanı taksi sürücülərinin hekayələri vasitəsilə kəşf edir. 1990-cı illərin iqtisadi böhranı dövründə Ədliyyə Nazirliyinin əməkdaşı, aktyor, polis, eləcə də müəllimlər və başqa peşə sahibləri ailələrini dolandırmaq üçün taksi sürməyə məcbur olur. Film demək olar ki, tamamilə avtomobillərin içində çəkilib. Şəhərin küçələri ilə hərəkət edən taksi sürücüləri yol boyu işdən, sevgidən, xəstəlikdən, məyusluqlardan və gerçəkləşməmiş arzularından bəhs edirlər.

4 iyul 19:10 Landmark (Cine-Club)

Retrospektiv: Heddi Honiqman

## **Müzakirə:** Monik Lesterhaüs ilə Heddi Honiqmanı xatırlayarkən

4 iyul 20:40 Landmark (Cine-Club)

# 5 iyul

Master-klas

## **Aysel Sadıqova ilə** master-klas

5 iyul 14:00 Landmark (Gaia zalı)

Yerli qısametrajlı sənədli film

## Qaçqın ata

***İsa Sauer*** | 34 dəq. | Niderland, Azərbaycan

30 il əvvəl azərbaycanlı atam Amsterdamda holland anamla tanış olur və ona aşiq olur. Siyasi səbəblərlə Azərbaycanı tərk etməyə məcbur qalan atam illər sonra bizim həyatımızdan da yoxa çıxır. Mən dörd yaşımda olarkən, qardaşım Kamielin doğulmasına az qalmış o, qəfildən bizi tərk edir. 20 il sonra qardaşımla birlikdə onu tapmaq və illərlə cavabsız qalan suallarımıza aydınlıq gətirmək üçün yola çıxırıq.

Nümayişdən sonra filmin rejissoru və qəhrəmanı ilə müzakirə var.

5 iyul | 16:20 | Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Menopauza müəmması

***Luiza Unmak Kyeldsen*** | 74 dəq. | Danimarka, Norveç, Almaniya

Əlli yaşlarında olan rejissor Luiza həyatında hər şeyin qaydasında olduğunu düşünür. Lakin qəfil nəsə dəyişir. O yata bilmir, unutqanlaşır, əhvalı tez-tez dəyişir və niyə belə hiss etdiyini anlamır. Menopauza diaqnozu aldıqdan sonra Luiza bu dəyişikliklərin səbəbini araşdırmağa başlayır və məlum olur ki, dünyanın hər yerində milyonlarla qadın eyni suallara cavab axtarır.

Nümayişdən sonra müzakirə var.

5 iyul | 17:30 | Landmark (Gaia zalı)

Beynəlxalq qısametrajlı sənədli film

## Sancılar

***Linn Saks*** | 12 dəq. | ABŞ

2022-ci ildə ABŞ Ali Məhkəməsi abort hüququnu ləğv edir. Bəs bu qərar amerikalı qadınların həyatına necə təsir göstərir? “Sancılar” bizi Tennessi ştatının Memfis şəhərinə aparır və abort xidmətlərini dayandırmaq məcburiyyətində qalan bir qadın sağlamlığı klinikasına nəzər salır. Kameraya arxasını çevirən 14 qadın bədənləri üzərində qərarvermə hüququndan məhrum edilməyin nə demək olduğunu kollektiv şəkildə ifadə edir.

5 iyul | 18:00 | Landmark (Cine-Club)

Beynəlxalq qısametrajlı sənədli film

## Tamamilə fərqli, tamamilə eyni

***Marianna Corcia Markezini*** | 30 dəq. | İtaliya, Monteneqro

Balkan regionunda yaşayan feminist aktivist Sabina Taloviç patriarxal zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizə aparır. Yuqoslaviya müharibələrindən bu günə uzanan təcrübəsi ona bir həqiqəti göstərib: həmrəylik müxtəlif formalarda ortaya çıxsa da, mahiyyət etibarilə dəyişmir.

---

5 iyul 18:15 Landmark (Cine-Club)

Retrospektiv: Heddi Honiqman

## Yaxşı ər, əziz oğul

***Heddi Honiqman*** | 50 dəq. | Niderland

Ahatoviçi kəndi Sarayevo yaxınlığındakı təpəliklərdə yerləşir. Yuqoslaviya müharibəsi zamanı kənd Serbiya qüvvələrinin nəzarətinə keçəndə Ahatoviçinin taleyi tamamilə dəyişir. Demək olar ki, bütün kişilər əsir götürülərək amansızcasına qətlə yetirilir, yaşayış məntəqəsi isə yandırılıb dağıdılır. Beləliklə, sağ qalanlar yalnız qadınlar və uşaqlar olur. “Yaxşı ər, əziz oğul” bu unudulmuş soyqırımın arxasındakı insan hekayələrindən bəhs edir.

---

5 iyul 19:00 Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Çəhrayı Ay altında tülkü

***Mehrdad Oskouei, Soraya Axlaqi*** | 76 dəq. | Danimarka, İran, Fransa, Böyük Britaniya, ABŞ

Cəmi 16 yaşında olan Soraya həm gözəlliyi, həm də qaranlıq ovqatı ilə seçilən heyrətamiz rəsmlər və heykəllər yaradır. Zorakı bir kişi ilə evli olan gənc əfqan rəssam beş il ərzində müxtəlif yollarla İrandan qaçaraq Avstriyada yaşayan anasına qovuşmağa çalışıb. Telefonu ilə çəkib rejissor Mehrdad Oskoueiyə göndərdiyi video-gündəliklər, rəsmləri və sürreal animasiyalar vasitəsilə Soraya öz hekayəsini danışır.

---

Filmin nümayişindən sonra rejissor və qəhrəmanla müzakirə var.

---

5 iyul 20:00 Landmark (Cine-Club)

# 6 iyul

Festivallardan seçmələr

## Birgəyaşayış? Yox bir!

***Amber Fares*** | 95 dəq. | ABŞ, Fransa

Noam Şuster Eliassi İsrail-Fələstin sülh prosesinin simvollarından biri kimi böyüyüb, daha sonra isə "stand-up" komediya və siyasi satiraya üz tutub. Ölkədə məqsədli şəkildə inteqrasiya olunmuş yeganə İsrail-Fələstin kəndində böyüyən Noam tədricən ənənəvi sülh aktivizminin təsirinə inamını itirir. Lakin bölgə get-gedə daha dağıdıcı zorakılığa qərq olduqca o, tamaşaçılarını heç də gülməli olmayan sərt həqiqətlərlə üzləşdirməli olur.

---

Nümayişdən sonra müzakirə var.

---

6 iyul 17:00 Landmark (Cine-Club)

Yerli qısametrajlı sənədli film

## Xəzər üçün rekviyem

***Suad Qara*** | 15 dəq. | Azərbaycan, İtaliya, Böyük Britaniya

Xəzərin sahilləri quruyur, balıqçı kəndləri yerini sənaye mənzərələrinə verir. Fabriklər, anbarlar və neft qurğuları bir vaxtlar çiçəklənən ekosistemi tədricən əvəz edərkən Pirallahı adasında sakinlər dənizin geri qayıdacağı günü gözləyirlər. Amma su  çəkilsə də, dənizin ruhu adanı tərk etmir.

---

Nümayişdən sonra rejissor ilə müzakirə var.

---

6 iyul 19:00 Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Qayaları yararaq

***Məhəmmədreza Eyni və Sara Xaki*** | 94 dəq. | İran, Almaniya, Niderland, Kanada

Sara Şahverdi İranın ucqar kəndlərindən birində yerli bələdiyyəyə seçilən ilk qadındır. Azərbaycanlı icmanın nümayəndəsi Sara yeniyetmə qızlara motosiklet sürməyi öyrətməklə, uşaq nikahlarına qarşı çıxmaqla və qadınların mülkiyyət hüququnu müdafiə etməklə patriarxal normalara meydan oxuyur. Lakin fəaliyyəti bəzi çevrələrdə narahatlıq doğurur və onun niyyətləri ilə bağlı ittihamlar ortaya çıxır.
Film “Ən Yaxşı Tammetrajlı Sənədli Film” üzrə 2026-cı il Oskar mükafatına namizəd olub.

---

Nümayişdən sonra rejissorlar və protaqonist Sara Şahverdi ilə müzakirə var.

---

6 iyul 20:00 Landmark (Cine-Club)

# 7 iyul

Festivallardan seçmələr

## Mailin

***Maria Silvia Esteve*** | 87 dəq. | Argentina, Fransa, Rumıniya

Mailin Argentinadakı bir kənddə uşaq yaşlarında keşiş və ailə dostu tərəfindən 15 il boyunca cinsi zorakılığa məruz qalıb. Başına gələnləri anlamaq, hətta sadəcə xatırlamaq belə, onun üçün uzun bir yol olub. Mailin indi susdurulmuş illərin hesabını soruşur, lakin onun ədalət axtarışı kilsənin hadisəni ört-basdır etmək cəhdləri ilə üz-üzə qalır.

---

7 iyul 16:45 Landmark (Cine-Club)

Yerli qısametrajlı sənədli film

## Coldünya: 1990-cı ildən bu günə

***Samirə Hüseynli*** | 19 dəq. | Azərbaycan

"Coldünya: 1990-cı ildən bu günə" filmi qrupun vokalisti Teymur Nadirin hekayəsi vasitəsilə Azərbaycanda alternativ musiqi səhnəsinin formalaşmasına baxış təqdim edir. Film Teymurun musiqiyə marağının başlanğıcından "Coldünya"nın yaranmasına, 90-cı illərdə səhnənin enerjisindən rok musiqiçilərinin tədricən ölkəni tərk etməsinə qədər uzanan bir dövrə nəzər salır.

---

7 iyul 18:30 Landmark (Cine-Club)

Retrospektiv: Heddi Honiqman

## Yeraltı orkestr

***Heddi Honiqman*** | 108 dəq. | Niderland

Bir vaxtlar Bosniya Milli Operasında işləyən, sonradan ordudan qaçan bir skripkaçı yeni həyatına sözün əsl mənasında yerin altında, Paris metrosunda musiqiçi kimi başlayır. O, ölkəsini tərk edib Fransada musiqi ilə dolanmağa çalışan çoxsaylı mühacir musiqiçidən biridir. Onlar arasında venesuelalı arfaçı, konqolu pop musiqiçisi, rumıniyalı ailə və başqaları var. Bəzilərinin həyatında müharibə, siyasi repressiyalar və ayrı-seçkilik dərin izlər qoyub. Fərqli ölkələrdən gəlsələr də, onları birləşdirən əsas məsələ doğma yurdlarından uzaqda yaşamaq və musiqi vasitəsilə yeni həyat qurmağa çalışmaqdır.

---

7 iyul 19:00 Landmark (Cine-Club)

Sizin üçün

# AniDok gecəsi

***Tədbirdə bir aylıq "DAFilms" abunəliyi qazanmaq imkanı olacaq.***

## Tüklü ayaqlar

***Andrea Dorfman*** | 16 dəq. | Kanada

## Çünki bu gün şənbədir

***Alis Esa Gimaraeş*** | 12 dəq. | Portuqaliya, Fransa, İspaniya

## Paradaïz

***Matea Radiç*** | 9 dəq. | Bosniya və Herseqovina, Kanada

## Bu meşələr kimindir?

***Keyt Nartker*** | 7 dəq. | ABŞ

## Çünki mən qızam

***Sayajan İspolqanova, Alisa Tyan, Rozita Keneşova, Fatima Çorobekova, Alina Alıbekova, Dariya Murzulukova, Aiana Baimuratova*** | 7 dəq. | Qırğızıstan

## Kollektiv yaddaş

***Kristina Kolmenares*** | 15 dəq. | Kolumbiya, Peru

## Quyruqsuz pişik

***Ofelya Hüseynzadə*** | 3 dəq. | Azərbaycan

---

Nümayişdən sonra *"Çünki mən qızam"* filminin rejissorları ilə müzakirə var.

---

7 iyul | 19:15 | Beer & Friends

Festivallardan seçmələr

# Yaddaş

***Vladlena Sandu*** | 98 dəq. | Fransa, Niderland

Valideynləri boşandıqdan sonra altı yaşlı Vladlena Krımdan Qroznıya köçür və Birinci Çeçenistan müharibəsinin şahidinə çevrilir. İllər sonra o, artıq rejissor kimi bu tamamilə şəxsi hibrid filmində uşaqlığına yenidən qayıdır. O, bir suala cavab axtarır: saysız-hesabsız uşağın taleyinə təsir edən və nəsildən-nəslə ötürülən zorakılıq zəncirini necə qırmaq olar? Yaratdığı kukla teatrında plastik kuklalar vasitəsilə Sandu uşaqlıqda şahid olduğu dəhşətləri canlandırır, müharibə xatirələrini lirik və təxəyyül gücü ilə zəngin bir filmə çevirir.

---

7 iyul | 21:00 | Landmark (Cine-Club)

# 8 iyul

Beynəlxalq qısametrajlı sənədli film

## Qazayağı qırışlar

***Cülyet Leonard*** | 24 dəq. | Belçika

Qadın olaraq qocalmaq faciədir. Fərqinə varmadan həmişə belə düşünmüşəm və mənə də həmişə bunu öyrədiblər. Bəs beynimdə və cəmiyyətdə bu qədər dərindən kök salmış bu axmaq fikirdən necə qurtulum? Otuz yaşıma çatmamış müxtəlif yaşlardan olan qadınlarla danışmağın və yaşlanma əleyhinə reklamları yerlə-yeksan etməyin artıq vaxtıdır.

## Makula

***Mariana X. Rivera*** | 25 dəq. | Meksika

Sonyanın tədricən görmə qabiliyyətini itirməsi qızını ailə tarixçəsində gizli qalmış səhifələri araşdırmağa sövq edir. Keçmişin izinə düşdükcə o, öz ana bətnindəki dövr və doğumu ilə bağlı indiyədək bilmədiyi həqiqətləri üzə çıxarır.

---

8 iyul 17:00 Landmark (Cine-Club)

Master-klas

## Azərbaycanca danışan bir kənddən "Oskar"a Məhəmmədreza Eyni və Sara Xaki ilə ustad dərsi

---

8 iyul 18:00 Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Mayda pıçıltılar

***Dongnan Çen*** | 95 dəq. | Honkonq, Niderland, Koreya, İsveç

Qihuonun bir sirri var: onun ilk menstruasiyası başlayıb. Bu o deməkdir ki, uşaqlıqdan qadınlığa keçidi qeyd edən ənənavi "Ətəkdəyişmə" mərasimi onun üçün də yaxınlaşıb. Uzaq Lyanşan dağlarında yaşayan 14 yaşlı Qihuo və dostları mərasim üçün ətək almaq məqsədilə yola çıxırlar. Lakin bu kiçik axtarış zamanın yavaşladığı və uşaqlığın hələ sona çatmadığı bir səyahətə çevrilir.

---

8 iyul 19:30 Landmark (Cine-Club)

Sizin üçün

# **SevilFest x KYNO:** Kinomanlar üçün “Speed Dating”

8 iyul | 19:30 | Double Eleven

Sizin üçün

# Nilgün

***Tolqa Oskar*** | 55 dəq. | Türkiyə

# **Oxu Gecəsi:** Nilgün Marmara

“SevilFest” ədəbiyyat, kino və feminist düşüncəni bir araya gətirən yeni bir rubrikaya başlayır. İlk oxu gecəmiz Türkiyə poeziyasının ən özünəməxsus və eniqmatik simalarından biri olan Nilgün Marmaraya həsr olunur.
Qısa ömrünə baxmayaraq, Nilgün Marmara poeziyasında azadlıq, tənhalıq, qadınlıq təcrübəsi, həyatın mənası və insanın daxili dünyası ilə bağlı suallara özünəməxsus bir dillə toxunmuşdur. 1987-ci ildə 29 yaşında həyatına son qoyan şairə bu gün də Türkiyədə oxunan və haqqında çox danışılan ədəbi fiqurlardan biri olaraq qalır.

Tədbir iki hissədən ibarətdir:
**Film nümayişi:** Tədbir Nilgün Marmaranın həyat və yaradıcılığına həsr olunmuş “Nilgün” sənədli filminin nümayişi ilə başlayacaq. Filmdə şairəni yaxından tanıyan insanların xatirələri vasitəsilə onun dünyasına səyahət ediləcək.
**Müzakirə və şeir oxunuşu:** Nümayişdən sonra filmin yaratdığı suallar üzərində birlikdə düşünəcək və şairənin seçilmiş şeirlərini səsləndirəcəyik. Arzu edən iştirakçılar oxunuşa qoşula bilərlər (şeirlərin çap olunmuş nüsxələri təqdim ediləcək). Oxu Gecəsi — qadınların yazdıqları, yaşadıqları və bizə miras qoyduqları hekayələr ətrafında birgə düşünmək, dinləmək və söhbət etmək üçün məkanımızdır.

8 iyul | 19:30 | Landmark (Gaia zalı)

Festivallardan seçmələr

# Replika

***Çova Lianq*** | 92 dəq. | Avstraliya, Fransa, Çin

Çində üç qadın ailə, evlilik və müstəqilliyin yaratdığı emosional boşluqları doldurmaq üçün süni intellektə üz tutur. İyirmi yaşlarında fabrik işçisi Qin tənhalıqdan qaçmaq üçün özünə sadiq virtual sevgili yaradır. Evli qadın Muna arzu və müstəqillik hissini yenidən qazanmaq üçün süni intellektdən istifadə edir. Özünə güvənən və müstəqil Sonya isə süni intellektə emosional bir eksperiment kimi yanaşır - ta ki gözləntiləri ilə reallıq arasındakı fərqlə üzləşənə qədər.

8 iyul | 21:30 | Landmark (Cine-Club)

# 9 iyul

Beynəlxalq qısametrajlı sənədli film

## Bizim yükümüz deyil

***Veronika Blekker*** | 39 dəq. | Böyük Britaniya

Efiopiyanın Tiqray bölgəsində müharibə zamanı 350 minədək qadın sistemli cinsi zorakılığa məruz qalıb. Dünyanın demək olar ki, görə bilmədiyi bu münaqişə zamanı bölgədən xəbər almaq uzun müddət mümkün olmayıb. “Bizim yükümüz deyil” minlərlə tiqraylı qadının yaşadıqlarını sağ qalan üç qadının timsalında dünyaya çatdırır.

9 iyul | 15:30 | Landmark (Cine-Club)

Yerli qısametrajlı sənədli film

## Leyla

***Əsli İsmayılzadə*** | 10 dəq. | Azərbaycan

Vaxtilə peşəkar voleybolçu olan Leyla gender kimliyinə görə həm karyerasını, həm də vətənini tərk etməyə məcbur olub. İndi Tbilisidə yaşayan Leyla həyatını yenidən qurur. O, idmana olan sevgisini qoruyub saxlayır, eyni zamanda DJ kimi özünə yeni yol açmağa çalışır.

9 iyul | 16:15 | Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Shh...Diam!

***Yiven Çen*** | 88 dəq. | Malayziya

Malayziyada cəmiyyətin genderlə bağlı qəbul etdiyi çərçivələrdən kənara çıxmaq ciddi risklər daşıyır. Buna görə də ikili gender çərçivəsinə sığmayan insanlar çox vaxt yalnız musiqi kimi subkulturalarda özlərini ifadə edə bilirlər. Rejissor Yiven Çen “Shh...Diam!” (Malayca “sus”) pank musiqi qrupunun timsalında bu mövzunu filmə çevirib. O, bir neçə il ərzində qrupun üç üzvünü - solist Farisi və musiqiçilər Yon ilə Yoyonu lentə alıb. Filmdə siyasət, kaminq-aut, hormonlar, tranzisiya, musiqi, sevgi və dostluq haqqında söhbətlər yer alır.

9 iyul | 16:25 | Landmark (Cine-Club)

Dra(q)matik

# Kraliçanın illüziyası

***Erinç Durlanık, Ceren Özkanlı Samlı*** | 21 dəq. | Türkiyə

İstanbulda yaşayan beş səhnə performansı sənətçisi öz səhnə obrazlarının arxasında dayanan hekayələri bölüşür. Film səhnə hazırlıqlarından, parlaq obrazlardan, eləcə də bugünkü Türkiyədə bu sənətlə məşğul olmağın çətinliklərindən bəhs edir.

# Ademi

***Jamila Saxari*** | 20 dəq. | Qazaxstan

Ali səhnəyə çıxarkən özünü azad hiss edir. Səhnədə yaratdığı obraz onun üçün özünü ifadə edə bildiyi təhlükəsiz bir sığınacaqdır. Lakin Ali səhnədə öz həqiqətini yaşayarkən, anası cəmiyyətin qınağı ilə üzləşir. Buna baxmayaraq, o, övladının ən böyük dəstəkçisi olaraq qalır və hətta onun səhnə geyimlərinin hazırlanmasına kömək edir.

# Pis gündəlik

***Eldar Aslanov*** | 12 dəq. | Azərbaycan

Lady Slim Azərbaycanda gender ifadəsini sənətə çevirən ilk  sənətkarlardan biri kimi tanınır. Rejissor onunla söhbətlər əsasında Lady Slim obrazının yaranma prosesindən fraqmentlər təqdim edir və sənətini özünüifadə forması kimi araşdırır. Mühafizəkar cəmiyyətdə yaşamaq və səhnəyə çıxmaq çox vaxt çətinliklərlə müşayiət olunsa da, Lady Slim həm yaradıcılığında, həm də gündəlik həyatında özünə yer açmağa davam edir.

---

Nümayişdən sonra müzakirə var.
Müzakirə Azərbaycan dilində aparılacaq.

---

9 iyul    18:30    Landmark (Cine-Club)

Sizin üçün

# Pyes oxunuşu və interaktiv teatr:
## Sevil öz sözünü deyib. İndi növbə bizdədir.

1928-ci ildə Cəfər Cabbarlı öz səsini tapan bir qadının hekayəsini – “Sevil”i yazdı. Aradan təxminən bir əsr keçsə də, əsərin qaldırdığı əsas suallar hələ də bizimlədir: kim danışır, kim dinlənilir və bir insanın öz sözünü deməsi nəyi dəyişir?
Bu il, 7-ci buraxılışında SevilFest “Yetdi” deyir. “Sevil” isə bu sözü çox əvvəl deyib. Biz bu mətnə təkcə klassik əsər kimi deyil, bu gün də davam edən canlı bir söhbət kimi yenidən qayıdırıq. Axşam iki hissədən ibarətdir:
**I Hissə:** Pyes oxunuşu. Aktyorlar “Sevil” pyesini müasir feminist baxışla oxuyacaqlar. Mətn yenidən səslənəcək, tanış sözlər isə yeni kontekstdə eşidiləcək.
**II Hissə:** İnteraktiv teatr. Qısa çay fasiləsindən sonra tamaşaçılar hekayənin bir parçasına çevriləcəklər. Siz səhnəyə qoşula, personajları əvəz edə, fərqli seçimlər təklif edərək hadisələrin inkişafına birbaşa təsir göstərə bilərsiniz.

---

Azərbaycan dilində aparılacaq.

---

9 iyul    19:00    Teatr $O_2$

Maskulinliklər

# Kekre

***Umut Derin Eroğlan*** | 20 dəq. | Türkiyə

Yeddi fərqli kişinin hekayəsi vasitəsilə film göstərir ki, vahid bir kişilik anlayışı yoxdur. "Kekre" kişiliyin qurulma prosesindəki iyerarxiyaları, üstünlükləri və kövrəklikləri üzə çıxarır.

# Kişilərin torpağı

***Mariam Bakaço Xaçvani*** | 15 dəq. | Gürcüstan

22 yaşlı Ana Gürcüstanın dağ kəndini tərk edib böyük şəhərdə musiqi təhsili almaq arzusundadır. O, təhsilini maliyyələşdirmək üçün atasının ona qoyub getdiyi ev və torpağı qonaq evinə çevirməyi planlaşdırır. Lakin Uşquli kəndində əsrlərdir davam edən adətə görə, ailədə oğul yoxdursa, mülk kişi qohuma keçir. Ana gələcəyi uğrunda mübarizə apararkən, sözlərin yetərsiz qaldığı yerdə mahnıları onun etiraz səsinə çevrilir.

# Kəsik

***Alen Delannua*** | 10 dəq. | Kanada

"Kişini kişi edən nədir?" Kanadalı kişilər bu suala vazektomiya (sisgender kişilərin reproduktiv qabiliyyətini məhdudlaşdıran kontraseptiv tibbi prosedur) təcrübələri üzərindən cavab axtarırlar. Yumor və səmimi söhbətlər əsasında qurulan film reproduktiv məsuliyyətin kimə aid olması, maskulinliklə bağlı stereotiplər və kişi reproduktiv sağlamlığı ətrafındakı tabular haqqında düşünməyə dəvət edir.

---

Film nümayişindən sonra "Maskulinliklər" mövzusunda panel müzakirəsi olacaq.
Müzakirə Azərbaycan dilində aparılacaq.

---

9 iyul  20:10  Landmark (Cine-Club)

# 10 iyul

Beynəlxalq qısametrajlı sənədli film

## Raeda

***Mariam Canini*** | 20 dəq. | İordaniya

Raeda 18 yaşında təhsilini yarımçıq qoyaraq əmisi oğlu ilə evlənməyə məcbur edilir. Onu sevməyən əri ilə həyatını davam etdirməyə çalışarkən, iki övladına nadir genetik xəstəlik diaqnozu qoyulur. Ailə üzvləri ilə səmimi söhbətlər vasitəsilə film Raedanın həyatının mühüm bir fəslinə nəzər salır.

10 iyul 17:20 Landmark (Cine-Club)

Retrospektiv: Heddi Honiqman

## Unudulanlar

***Heddi Honiqman*** | 92 dəq. | Niderland

Lima şəhərində ayaqqabı silən uşaqlar, küçə satıcıları, restoran işçiləri və digər sakinlər gündəlik həyatlarından, arzularından və dolanışıq uğrunda mübarizədən danışırlar. Onların bəziləri gündüzlər şəhərin ən varlı sakinlərinə xidmət göstərir, axşamlar isə şəhərkənarı yoxsul məhəllələrdəki evlərinə qayıdırlar. Film iqtisadi böhranların və sosial bərabərsizliyin adi insanların həyatında necə iz buraxdığını göstərir. Burada diqqət siyasətçilərə deyil, onların qərarlarının nəticələri ilə yaşayan insanlara yönəlir. Bu hekayələr vasitəsilə unudulanların səsi görünən və eşidilən olur.

10 iyul 17:45 Landmark (Cine-Club)

Festivallardan seçmələr

## Çay yuxuları

***Kristina Mixaylova*** | 98 dəq. | Qazaxıstan, İsveçrə, Böyük Britaniya

Aksay çayının axarı boyunca gənc qadınlar öz həyatları, arzuları və gələcəkləri haqqında düşünürlər. Onların şəxsi hekayələri Qazaxıstanda qadınlara qarşı zorakılıq, korrupsiya və dərin kök salmış patriarxal münasibətlər barədə səmimi söhbətlərə çevrilir. “Çay yuxuları” dəyişiklik arzulayan bir nəslin portretini yaradır.

Nümayişdən sonra rejissor ilə müzakirə var.

10 iyul 19:30 Landmark (Cine-Club)

# 11 iyul

Beynəlxalq qısametrajlı sənədli animasiya

## Tüklü ayaqlar

***Andrea Dorfman*** | 16 dəq. | Kanada

13 yaşlı bir qız ayaq tüklərini qırxmamaq qərarı verir. Kiçik görünən bu seçim onu qadın bədəni, gözəllik standartları və gender stereotipləri ətrafında formalaşmış qaydaları sorğulamağa sövq edir.

## Çünki bu gün şənbədir

***Alis Esa Gimaraeş*** | 12 dəq. | Portuqaliya, Fransa, İspaniya

Bir qadın özünə nadir bir hədiyyə vermək istəyir: yaradıcılığına vaxt ayırmaq. Bunun üçün şənbə günü hamıdan əvvəl oyanır. Lakin uşaqların, ev işlərinin və bitib-tükənməyən qayğıların arasında bu cəhd dəfələrlə yarımçıq qalır. Məişət həyatının görünməz zehni yükü getdikcə ağırlaşır və qadını dözüm həddinə çatdırır.

## Paradaïz

***Matea Radiç*** | 9 dəq. | Bosniya və Herseqovina, Kanada

Güllə deşikləri ilə dolu evlərin və saatlı bombaya çevrilmiş pomidorların dünyasına xoş gəlmisiniz. Bura Sarayevodur, Bosniya müharibəsi zamanı rejissor Matea Radiçin tərk etdiyi doğma şəhəri. O, absurd animasiya vasitəsilə müharibə travması, köçkünlük və “ev” anlayışı üzərinə düşünür.

## Bu meşələr kimindir?

***Keyt Nartker*** | 7 dəq. | ABŞ

1841-ci ildə ABŞ-ın Ohayo ştatında yaşayan Culianna Hofrixter meşədə qoz toplamaq üçün evdən çıxır və bir daha geri qayıtmır. Təxminən iki əsr sonra rejissor Keyt Nartker animasiya vasitəsilə ulu nənəsinin izinə düşür. Toxunmuş parçalardan kadr-kadr yaradılmış bu film ailə tarixçəsini və müəmmalı itkini yenidən təsəvvür edərək insanın təbiətlə əlaqəsinə diqqət çəkir.

## Çünki mən qızam

***Sayajan İspolqanova, Alisa Tyan, Rozita Keneşova, Fatima Çorobekova, Alina Alıbekova, Dariya Murzulukova, Aiana Baimuratova*** | 7 dəq. | Qırğızıstan

Qırğızıstanda yeniyetmə qızların ərsəyə gətirdiyi bu animasiya onların qadınlığa dair düşüncələrini bir araya gətirir. Yeddi animator böyüdükləri mühitdə qarşılaşdıqları gündəlik gözləntilər və sosial rollar haqqında danışırlar. Film gender normalarının yeniyetmə qızların gündəlik həyatına necə təsir etdiyinə işıq salır.

# Kollektiv yaddaş

***Kristina Kolmenares*** | 15 dəq. | Kolumbiya, Peru

1983-cü ildə Perunun “Parlaq Yol” hərəkatı ilə silahlı münaqişəsinin ən qaranlıq günlərində maskalı əsgərlər Adelinanın evinə girərək ərini aparırlar. O, ərini bir daha heç vaxt görmür. Polis və ordunun susqunluğu və etinasızlığı ilə üzləşən Adelina yaxınlarını itirmiş digər qadınlarla birləşərək həqiqət və ədalət uğrunda mübarizəyə qoşulur.

# Beynəlxalq AniDok müsabiqəsi

66 dəq.

11 iyul | 15:00 | Landmark (Gaia zalı)

Xüsusi nümayiş

# Möhtəşəm ana

***Emili Brizavuan*** | 80 dəq. | Fransa

Emili öz dünyasının ən böyük sirrini - anası Monu anlamağa çalışır. Anasını bir çox formada təsvir etmək olar; sehrli nənə, yaralı uşaq, pank ruhlu ana, spontan feminist. Onun hekayəsi insanı həm valeh, həm də narahat edir. Uşaqlığında sevgidən məhrum qalan biri bu sevgini öz övladlarına necə verə bilər? Travmalarla böyüyən insan içindəki uşağı necə qoruyur, necə sağaldır? Film bizi ailə, yaddaş və susqunluq haqqında səmimi, qəribə və kosmik bir səyahətə aparır.

Nümayişdən sonra kinoşünas Öykü Sofuoğlu ilə filmin təhlili və müzakirəsi.
Bu nümayiş Fransanın Bakıdakı səfirliyinin dəstəyi ilə keçirilir.

11 iyul | 16:30 | Landmark (Gaia zalı)

# Qapanış mərasimi

## “Dakini Series”in musiqi performansı ilə

Giriş sərbəstdir.

11 iyul | 18:00 | Landmark 22-ci mərtəbə

AMBASSADE DE FRANCE EN AZERBAÏDJAN
Liberté
Égalité
Fraternité

INSTITUT FRANÇAIS
Azerbaïdjan

GOETHE INSTITUT

EMBASSY OF BELGIUM

dafilms.com

eye

ONF NFB

WE ARE CENTRAL ASIA

TERRA LEONE
WINE OF AZERBAIJAN

Chai

Dolce Duo
PASTRY

TheLandmark
World-class offices in the heart of Baku

space

11:11
Double Eleven
cocktail & wine bar

BEER & FRIENDS
BEER • SHOTS • FRIENDS

teatr O2

LW&D
BAKU

Menarki

kyno

YARNY

ebiletstore

INHERROOM

DAKINI

PARCHA

Barghuzar

TenbElf

AMOUR

mi mi
SUSTAINABLE FASHION - VINTAGE APPAREL - EST. 2007

SEVİL BEYNƏLXALQ
QADIN SƏNƏDLİ
FİLM FESTİVALI